KÜRD xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

# DÎPLOMAT

№ 18 (392) 31 İyul, Tîrmeh 6 Avqust,Tebax sal, 2017
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiymәti: Hêjaye: 40 qəpik




Səh. 2

## Milli mətbuata göstərilən diqqət və qayğıya görə media təmsilçiləri Prezident İlham Əliyevə təşəkkür edirlər



Səh. 4

## Məsrur Bərzani: Kürdistanla İraqın yaxşı əlaqələrə sahib iki qonşu ölkə olmasını istəyirik



Səh. 6

## Məsud Barzani: Referendum kürdlərin təbii haqqıdır



Səh. 3

### Daşkəsəndə Yaponiya Hökumətinin dəstəyi ilə yeni içməli su xətti istifadəyə verilib



Səh. 9

### Hoşyar Zebari: Büyük devletler, Kürdistan'ın referandum konusunda ciddi olduğunun farkında




Səh. 12

### McGurk: El Kaide çawa dikare bikeve Idlibê?




Səh. 14

### Хемин Хаврами: Независимость - лучшая формула для отношений Эрбиля и Багдада

## Şəddadi Kürd dövləti Səh. 7

## Türkmen temsilci Najar: Türkmenleri koruyan hep Kürtler olmuştur Səh. 8

## 'Bağımsızlık Referandumu'nu Destekleme İnsiyatifi' Çalışmalarını Yoğunlaştırdı Səh. 8

## Opozesyona Sûriyê: Pêwîst e Reqa radestî me bê kirin Səh. 12

## İraqlı qüvvələrin Kərkükdə İŞİD ilə savaşdakı uğurları zSəh. 6

## Хемин Хаврами: Независимость - лучшая формула для отношений Эрбиля и Багдада Səh. 14



Səh. 4

### Tel-Əviv Kürdistanın müstəqillik məsələsini dəstəkləyir




Səh. 8

### ABD'li eski büyükelçi: Kürdistan'ın bağımsızlığına engel olunamaz



Səh. 13

### Serhildana Oremarê ya 1930'an Nasnameya serhildanê (6)



Səh. 5

### MÜSTƏQİL KÜRDÜSTAN YAXIN ŞƏRQDƏ SÜLHÜN QARANTI OLACAQ

# Milli mətbuata göstərilən diqqət və qayğıya görə media təmsilçiləri Prezident İlham Əliyevə təşəkkür edirlər

Azərbaycanda dövlət tərəfindən milli mətbuata göstərilən yüksək diqqət və qayğıya, jurnalistlərin sosial şəraitlərinin yaxşılaşdırılması istiqamətində addımların atılması və onların yeni mənzillərlə təmin edilməsinə görə, dövlət başçısı Prezident İlham Əliyevin ünvanına media təmsilçilərindən təşəkkür məktubları gəlir.

**"Trend" Beynəlxalq İnformasiya Agentliyi, "Day.Az", "Milli.Az" xəbər portalları və "Azernews" qəzetinin kollektivləri adından**

"Möhtərəm cənab Prezident!

Sizin zəngin və şərəfli tarixə malik Azərbaycan mətbuatının tərəqqisi istiqamətində ardıcıl gördüyünüz işlər, kütləvi informasiya vasitələrinin inkişafına göstərdiyiniz maddi dəstək, media işçilərinə qayğı və diqqətiniz dünya miqyasında bənzəri olmayan bir təcrübə, örnəkdir. Xüsusilə, jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə tərəfinizdən imzalanan Sərəncam əsasında jurnalistlər üçün 255 mənzilli ikinci binanın inşa edilməsi nəinki media işçiləri tərəfindən, çoxmilyonlu xalqımız tərəfindən yüksək qarşılanmışdır. Bizlərə göstərdiyiniz bu qayğı və etimadı doğrultmaq üçün bundan sonra da Sizin rəhbərliyiniz altında Azərbaycan dövlətçiliyinin inkişafı, Vətənimizin rifahı, haqq sözümüzün dünyaya çatdırılması istiqamətində gördüyümüz işi daim var gücümüzlə davam etdirəcəyik.

Cənab Prezident, Sizə dərin hörmət və təşəkkürümüzü bildirir, doğma Azərbaycanımızın gələcək inkişafı naminə gördüyünüz misilsiz işlərinizdə uğurlar arzulayırıq".

**Vüqar Rəhimzadə - "İki sahil" qəzetinin baş redaktoru**

"Möhtərəm cənab Prezident,

Sizi "İki sahil" qəzetinin kollektivi adından növbəti dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görülməyiniz münasibətilə təbrik edir, gələcək fəaliyyətinizdə yeni və daha möhtəşəm uğurlar arzulayırıq. Siz jurnalistlərin dostu və himayədarısınız. Biz jurnalistlər bu diqqət və qayğını gündəlik həyatımızda, yaradıcılıq fəaliyyətimizdə hiss edirik. Təbii ki, bu xoş ənənənin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub və hazırda Sizin tərəfinizdən uğurla davam etdirilir.

Cənab Prezident, Sizin Sərəncamınızla jurnalistlər üçün növbəti yaşayış binasının açılış mərasimi keçirildi və 255 həmkarımız dövlət tərəfindən mənzillə təmin edilərək böyük sevinc, qürur hissi yaşadı. Bu möhtəşəm layihənin təşəbbüskarı və rəhbəri Sizsiniz. Məhz Sizin diqqət və qayğınız sayəsində jurnalistlərimiz səmərəli fəaliyyətlərinə görə fəxri adlarla təltif edilir, KİV-in maddi-texniki bazasını daha da gücləndirmək məqsədilə birdəfəlik yardımlar ayrılır.

Möhtərəm Prezident, Sizi əmin etmək istəyirik ki, 26 illik fəaliyyətində dövlətçilik və milli maraqları rəhbər tutan "İki sahil" qəzeti bundan sonra da bu müqəddəs amallara sadiq qalacaq. Qeyd etdiyiniz kimi, biz jurnalistlər Sizin köməkçilərinizik və hər zaman Sizin rəhbərliyiniz ilə Azərbaycanın uğurlu, parlaq gələcəyinə hesablanmış çoxşaxəli siyasətə öz töhfəmizi verəcəyik".

**Yaqubov Hikmət Əlisgəndər oğlu - AzTV-nin bədii rəhbəri, Əməkdar Mədəniyyət İşçisi**

"Möhtərəm cənab Prezident,

Dövlətimiz tərəfindən evlə təmin olunmağım həyatımın ən böyük fəxarət və qürur anıdır. Prezidentimin məni jurnalistlər üçün tikilən binadan mənzillə təmin etməsi ailəmin və valideynlərimin sonsuz sevincinə səbəb olub.

Prezidentimizin atdığı bu nəcib və humanist addımların əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün də layiqincə davam etdirilir.

Zati-aliləri, Allahdan Sizə və ailənizə cansağlığı arzulayıram. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya Vətənimizin çiçəklənməsi yolundakı yorulmaz fəaliyyətində uğurlar diləyirəm. Fürsətdən istifadə edib, Sizi "Jurnalistlərin dostu" mükafatına layiq görülməyiniz münasibətilə təbrik edirəm".

**Afiq Mirzə (Mirzəbəyli) Yelmar oğlu - "Reytinq" qəzetinin baş redaktoru**

"Cənab Prezident,

22 İyul - Milli Mətbuat Günü ərəfəsində 255 jurnalisti mənzillə təmin etdiyinizə görə Sizə təşəkkür edirəm. Kütləvi informasiya vasitələrinin inkişafına göstərdiyiniz maddi dəstəyinizi, media işçilərinə qayğı və diqqətinizi hər kəs kimi mən də alqışlayıram.



Mənzil şəraiti ağır olan bir çox jurnalisti evlə təmin etdiniz. Bu, təbii ki, özümlə bərabər, illərdir kirayələrdə yaşayan çoxsaylı jurnalistlərin də sevincinə səbəb oldu. Sevinənlərdən biri də "Reytinq" qəzetinin baş redaktor müavini Fazil Əhməddir. O da, mənzillə təmin edildi. Jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması, media işçiləri üçün 255 mənzilli üçüncü binanın təməlinin atılması da müsbət addımdır. Üstəlik, bu mənzillərin tikintisi üçün maliyyə vəsaitinin ayrılması barədə Sərəncamınız cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Siz bununla evə ehtiyacı olan jurnalistləri kirayə qayğısından qurtarırsınız. Buna görə öz adımdan və rəhbəri olduğum kollektiv adından Sizə dərin təşəkkürümü bildirirəm".

**Aslan Aslanov - AZƏRTAC-ın kollektivi adından**

"Zati-aliləri, əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş mətbuata dövlət qayğısının Sizin müdrik rəhbərliyinizlə uğurla davam etdirilməsi nəticəsində KİV-in inkişafı, jurnalistlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Mətbuat işçiləri üçün iki yaşayış binasının tikilməsi və üçüncü binanın təməlinin qoyulması ölkəmizdə bu sahəyə ən yüksək diqqət və qayğının parlaq nümunəsi olmaqla yanaşı, media işçilərini daha şövqlə işləməyə ruhlandırır. Bu, Sizin dünyada analoqu olmayan çox nəcib təşəbbüslərinizdən biridir.

Möhtərəm cənab Prezident,

Sizin mətbuat, söz və fikir azadlığının inkişafına ali diqqət və qayğınızdan hərtərəfli şəkildə bəhrələnən AZƏRTAC qarşısına qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirməyə çalışır, müdrik siyasətiniz nəticəsində qazanılan uğurlar barədə xəbərləri dünya miqyasında geniş yaymaqdan qürur duyur. Siz kollektivimizin fəaliyyətini daim layiqincə qiymətləndirir, agentliyimizin əməkdaşlarını yüksək fəxri adlar, orden və medallarla təltif edirsiniz. Jurnalistlər üçün inşa edilən ikinci binadan AZƏRTAC-ın bir qrup əməkdaşına mənzillərin verilməsi bu diqqət və qayğının növbəti təzahürüdür.

Əziz Prezidentimiz, ölkə mediasının 255 nümayəndəsinə, o cümlədən AZƏRTAC-ın əməkdaşlarına yaşatdığınız bu sevincə görə agentliyimizin kollektivi adından Sizə dərin minnətdarlığımızı bildirir, uzun ömür, möhkəm cansağlığı, dövlətimizin və xalqımızın firavanlığı naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirik.

Allah Sizi qorusun!"

**Səxavət Məmmədli - "Həftə içi" qəzetinin bölgə müxbiri, Fəxrəddin Rəhimov - "İşıq" qəzetinin redaktor əvəzi, Qaçay Həsənli - "Dünya və biz" jurnalının əməkdaşı, Fərhad Səlimov - "Təzadlar" qəzetinin müxbiri və başqaları**

"Hörmətli cənab Prezident,

Sizin Azərbaycan Respublikasının inkişafı üçün göstərdiyiniz fəaliyyət, qazandığınız uğurlar bizi ürəkdən sevindirir. Daha 255 jurnalistin mənzillə təmin olunması və Sizin jurnalistlərin dostu elan edilməyiniz cəmiyyətlə Prezident arasındakı qarşılıqlı və səmimi münasibətin təzahürüdür. Sizin media işçilərinə olan xeyirxah münasibətiniz hamı kimi Şirvan şəhərində yaşayan və fəaliyyət göstərən jurnalistlərin də ürəyincədir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası çərçivəsində son vaxtlar Şirvan şəhərində həyata keçirilən uğurlu layihələr şəhər sakinləri tərəfindən razılıqla qarşılanır. "Cənub" İstilik Elektrik Stansiyasının, Bayraq Meydanının, Olimpiya İdman Kompleksinin, Müalicə Diaqnostika Mərkəzinin tikintisi, əlil və şəhid ailələri üçün 129 mənzilin inşası, mərkəzi şəhər xəstəxanasının, mədəniyyət mərkəzinin əsaslı təmiri, 15 mindən çox yeni iş yerinin açılması, genişmiqyaslı abadlıq-quruculuq işləri Sizin diqqətiniz sayəsində mümkün olub.

Bu il iyunun 23-də Şirvan şəhərinə səfəriniz çərçivəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Şirvan şəhərində yerləşən hərbi hissəsindəki açılışında iştirak etməyiniz, 52 binanın dam örtüyünün dəyişdirilməsi və fasad hissəsinin əsaslı təmiri üçün Prezidentin ehtiyat fondundan Şirvan Şəhər İcra Hakimiyyətinə 3 milyon manat ayırmağınız da bizə olan diqqət və hərtərəfli qayğının bir hissəsidir.

Cənab Prezident, bütün bunlara görə Sizə təşəkkür edirik".

**Ağahüseyn Şükürov**

"Möhtərəm cənab Prezident, müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı olaraq Siz dünyada yaşayan bütün azərbaycanlıların güvən yeri, hər təbəqədən olan insanların böyük qayğıkeşi və hamisisiniz. Biz bunu öz gündəlik həyatımızda daim hiss edirik. Bu bir həqiqətdir ki, Sizin rəhbərliyinizlə Azərbaycan gündən-günə inkişaf edir, möhkəmlənir. Biz bu ölkədə yaşayıb-yaratmağımızla fəxr edir, sizinlə qürur duyuruq.

Jurnalistika sahəsində çalışan yüzlərlə həmkarım kimi, media işçiləri üçün inşa olunan ikinci binada mənə də ev hədiyyə etməyiniz bizi hədsiz dərəcədə sevindirdi. Bu gün ailə üzvlərimin sevincinin həddi-hüdudu, tələbə və məktəbli övladlarımın uçmağa qanadı yoxdur.

Cənab Prezident, ailə üzvlərim və qohumlarım adından Sizə dərin təşəkkürümü bildirirəm. Allah Sizə və ailə üzvlərinizə həmişə şad və xeyirli günlər qismət eləsin! Allah Sizi daim sevindirsin! Allah Sizi xalqımızın başının üstündən əskik etməsin! Allah Sizi qorusun!"

**Rəsulova Firuzə Həmdəm qızı**

"Möhtərəm cənab Prezident, dövlət başçısından mənzil hədiyyə almaq hər bir jurnalist üçün çox böyük sevinc, şərəf və qürurdur. Milli Mətbuat Günü ərəfəsində jurnalistlər üçün tikdirdiyiniz ikinci binadan mənə də mənzil hədiyyə etdiniz. Bu, misilsiz hədiyyədir. Bir insanın ən zəruri ehtiyacının - mənzilə olan tələbatının ödənilməsi, əlbəttə, xoşbəxtlikdir. Bu xoşbəxtliyi bəxş edənin savabı isə sonsuzdur. Siz bu savabı qazandınız. İllərlə mənzil gözləyənlərin xəyalını gerçəyə çevirdiniz. Artıq onların da hər gün qapısını ürəklə açacağı, içində rahatlıq tapacağı, məişət qayğısına boğulmadan öz yazı-pozusu ilə məşğul olacağı evi var! Üstəlik, "Bu ev, bu mənzil Prezidentimin hədiyyəsidir" deyə fəxarət duyğusu var. Bu bəxtiyarlıq bir ömür boyu unudulmayacaq. Mənzillərin təqdimat günündə gözlərdəki sevinc, üzlərdəki gülüş, dillərdəki dua bunu söyləyirdi. Bu dualar hər gün "Jurnalist şəhərciyi"ndəki gözəl mənzillərin geniş pəncərələrindən də sonsuzluğa ucalacaq. Bunun mənəvi anlamı qat-qat böyükdür, mənəvi dəyəri maddi dəyərini çox-çox üstələyir. Bu, insanın, insanlığın, onun sabahının, bütövlükdə Azərbaycanın gələcəyinin qayğısını çəkməkdir!

Təşəkkürlər, möhtərəm Prezidentimiz! Sizə bir minnətdarlıq borcumuz var. Minnətdarlığımızı qəbul edin. Tanrı Sizi, Azərbaycanımızı və xalqımızı qorusun!

**Quliyev Bəhruz - "Səs" qəzetinin baş redaktoru**

Möhtərəm cənab Prezident,

"Səs" qəzetinin kollektivi olaraq, ilk növbədə, Sizi növbəti dəfə "Jurnalistlərin dostu" adına layiq görülməyiniz münasibətilə təbrik edirik. Belə ki, ölkəmizin bütün media təmsilçiləri Sizi özlərinə dost biliblər və bu dostluğun təməli hələ ulu öndər Heydər Əliyev tərəfindən qoyulub.

Ulu öndər daim mətbuata ata qayğısı göstərərək, KİV-lərin inkişafı üçün mühüm qərarlar və tapşırıqlar verib. Bu gün isə həmin ənənə Sizin rəhbərliyiniz, diqqət və qayğınız nəticəsində tərənnüm olunmaqdadır.

Zati-aliləri,

Jurnalistlərə fəxri adların verilməsi, mətbu orqanlara birdəfəlik yardımların ayrılması, ən əsası isə jurnalistlərin mənzil-məişət problemlərinin aradan qaldırılması istiqamətində dünyada analoqu olmayan sərəncamların imzalanması bu gün ölkəmizdə mətbuatın dövlətin diqqət mərkəzində olduğunu bir daha sübut edir. Ənənə şəklini almış bu cür ardıcıl töhfələr, media nümayəndələrinə verilən mənzillər, atılan hər bir addım bizlərin - jurnalistlərin böyük sevincinə səbəb olur.

Möhtərəm Prezident,

Ulu öndər Heydər Əliyevin ən sevimli qəzeti olaraq tarixə düşmüş "Səs"çilər də Sizin qayğınızdan fərəh və qürur hissi keçirir, fəaliyyətinizdə uğurlar və yeni-yeni zəfərlər arzulayır, sonsuz minnətdarlığımızı bildiririk.

Çox sağ olun, cənab Prezident!"

**Azər Həsrət Hacıqulu oğlu - Əməkdar Jurnalist**

"Hörmətli cənab Prezident,

Sizə bir daha dərin minnətdarlıq hissi ilə təşəkkür etmək istəyirəm ki, 22 iyul - Milli Mətbuat günü ərəfəsində 255 jurnalist həmkarımızı mənzillə təmin edərək ailələrinə sevinc bəxş etdiniz. Sizin bu xalqyönümlü humanist əməyiniz bir daha təsdiq edir ki, hər bir azərbaycanlının Prezidenti olacağınızla bağlı verdiyiniz söz sadəcə söz deyil. Siz biz jurnalistlərin yaxın dostu, ən çətin anlarımızda himayədarımızsınız. Biz Azərbaycan jurnalistləri istər ölkə içində, istərsə də ölkədən xaricdə olanda həmişə özümüzü yalnız ona görə güvəndə hiss edirik ki, arxamızda məhz Sizin kimi Prezident dayanır. Biz həmişə Sizi özümüzə güvən yeri, dayaq bilmişik və buna görə də heç vaxt yanılmamışıq. Ona görə də, izn verin, jurnalistlər üçün tikdirdiyiniz 2-ci binanın təhvil verilməsi və 3-cü binanın təməlinin atılması münasibətilə Sizə dərin təşəkkürümü ifadə edim. Biz Sizinlə fəxr edirik, qürur duyuruq.

Biz Sizi özümüzə hər zaman ən yaxın dost kimi görürük. Buna görə də Sizin siyasətinizi bundan sonra da tam gücümüzlə dəstəkləməyə davam edəcəyik. Yeri gəlmişkən, düz 2 il öncə bu günlərdə məni Əməkdar Jurnalist fəxri adı ilə təltif etdiyinizə görə Sizə təkrar təşəkkür etmək istərdim".

**Şəmsivari İndira İslam qızı - Sumqayıt şəhəri**

"Möhtərəm cənab Prezident,

Sizi çox sevirik! Allah Sizi qorusun! Media nümayəndələrinə bağışladığınız o evləri görəndə, orada yaşayacaq insanların sevincini izləyəndə, dostlarla paylaşanda kövrəldim. Mənzil almağın sevinc hissini yaşamağın nə olduğunu yaxşı bilən bir insan kimi Tanrıma dua etdim ki, Siz daim sağlam və güclü olasınız ki, dünyanın bu böhranlı vaxtında, bax beləcə, atasına layiq oğul kimi, xalqınıza daim xidmət edəsiniz.

Əziz Prezidentimiz, Siz dünyada qüdrətli dövlətlərin öz vətəndaşına edə bilmədiyi xeyirxah işləri xalqınıza edirsiniz. Allah Sizi və sevdiklərinizi qorusun! Qəlbim fəxarətlə doludur. Bilirəm ki, Sizin kimi lideri Tanrı da sevir. Uca Yaradan Sizə yardımçı olsun!

Mən Açıq hökumətin təşviqi Milli Fəaliyyət Proqramı çərçivəsində bütün regionlarda çıxış edərək, Sizin xalqımıza göstərdiyiniz böyük və fədakar xidmətlərdən danışıram. Sizin öz xalqınızın həyatını asanlaşdırmaq üçün atdığınız qətiyyətli addımlardan söz açır, bölgələrdə bu Proqramdan sadə əhalinin necə faydalanmasını başa salırıq.

Tanrıya Heydər Əliyevi, Sizi bizə bəxş etdiyi üçün dualar edirik. Siz bütün dünya azərbaycanlılarının Prezidenti olduğunuzu sübut etmisiniz. Övladınız Heydər İlham oğlu Əliyevi də özünüz kimi, millətimizə xeyirli bir övlad kimi böyütmüsünüz. Allah Sizi qorusun!"

**Ləman Ağayeva - Sumqayıt şəhəri**

"Salam cənab Prezident,

Milli Mətbuatımızın 142 illiyi münasibətilə daha 255 jurnalist ailəsinə sevincli anlar yaşatdınız. İnsanları, sözün həqiqi mənasında, xoşbəxt etdiniz. Dünyanın heç bir ölkəsində, həm də qlobal böhranlar dövründə jurnalistlər bu qədər diqqət və qayğı ilə əhatələnməyib. Həmin sevincdən bizim ailəyə də pay düşdü. Anam Aida Eyvazovanın 35 illik jurnalist fəaliyyətini dəyərləndirdiniz. Ailəmizə yaşatdığınız bu sevincə görə doğmalarım və dostlarım adından Sizə dərin minnətdarlığımı bildirirəm və əminəm ki, o mənzillərdən hər zaman sevinc-şadlıq səsi gələcək. Sizi hər zaman dəstəkləyir və sevirik. Tanrı Sizi qorusun!"

**Yolçuyev Əkbər Mehdi oğlu (Ə.Qoşalı)**

"Möhtərəm cənab Prezident,

Siz bu gün bizlərin öz keçmişinə unudulmaz gün əlavə etdiniz. Bu günü bizlərə bəxş etdiyiniz üçün Sizə ürək dolusu minnətdaram! Siz yalnız jurnalistlər üçün ev tikdirmirsiniz, Siz ümumən qurucu lidersiniz! Jurnalistlər evində yaşamağın mənəvi dəyəri, maddi dəyərindən çox yüksəkdir. Biz, Sizin jurnalistlərə qayğınızı, mediamızın inkişafını ölkəmizin ümumi inkişaf strategiyasının üzvi tərkib hissəsi kimi qəbul edirik. Sizin sərəncamlarınız, qəbul etdiyiniz proqramlar, verdiyiniz tapşırıqlar əsasında ayrı-ayrı sənət-peşə sahibləri, müharibə veteranları, şəhid ailələri, qaçqın və məcburi köçkün vətəndaşlarımız, sosial müdafiəyə ehtiyacı olan ailələr, gənclər, idmançılar evlə təmin olunur və bu proses məqsədəuyğun şəkildə davam edir.

"Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair strateji yol xəritəsi"nin qəbulunu, Yasamal yaşayış kompleksinin tikintisini qeyd etmək yetərlidir ki, toxunulan mövzuya Sizin nə qədər hərtərəfli yanaşdığınız bariz şəkildə görünsün. Beləliklə, paytaxtımızda daha 255 yeni mənzilin işığı yanacaq! 255 mənzilin pəncərəsindən gülüzlü Azərbaycan körpələrinin, gənclərimizin üzünə Səbail Günəşi düşəcək. Neçə ailə kirayədən, yataqxanadan, hansısa ucqardakı təmirsiz mənzildən, sözün həqiqi mənasında, aydınlığa çıxacaq. Bu işıqlanmanın, aydınlanmanın memarı Sizsiz, cənab Prezident!

Bir daha Sizə könül dolusu minnətdarlığımızı yetirir, şərəfli işinizdə uğurlar diləyirəm!"

**Xayrulin Fərid Həbibulla oğlu**

"Çox hörmətli cənab Prezident.

Əməyimi yüksək dəyərləndirdiyinizə - jurnalistlər üçün tikilmiş binada mənə mənzil verdiyinizə görə Sizə səmimi qəlbdən minnətdarlığımı bildirirəm. Mən bunu 70 illik yubileyimə çox qiymətli hədiyyə hesab edirəm.

Cənab Prezident, mənə həyatımın ən böyük sevincini yaşatdığınıza görə Sizə bir daha ürəkdən təşəkkür edirəm".

# Daşkəsəndə Yaponiya Hökumətinin dəstəyi ilə yeni içməli su xətti istifadəyə verilib

26 iyulda Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində Yaponiya Hökumətinin dəstəyi ilə “Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı” çərçivəsində “Yuxarı Daşkəsən qəsəbəsinin içməli su təchizatının yaxşılaşdırılması” layihəsinin təntənəli açılış mərasimi keçirilib. Mərasimdə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev, Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Teruyuki Katori, Yaponiya Səfirliyinin 1-ci müşaviri Takaaki Usui, Yaponiya Səfirliyinin layihələr üzrə mütəxəssisi Aysel Məmmədli, “Konstitusiya” Araşdırmaları Fondunun prezidenti, layihənin rəhbəri Əlimməmməd Nuriyev, rayon sakinləri, ictimaiyyət nümayəndələri və KİV mənsubları iştirak ediblər.

Yaponiya və Azərbaycan himnlərinin səsləndirilməsi ilə başlayan mərasimdə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev çıxış edib. O, çıxışında deyib:

- Hörmətli cənab səfir Teruyuki Katori, hörmətli qonaqlar və toplantı iştirakçıları!

Əvvəla sizlərin hər birinizi ürəkdən salamlayır, qonaqlarımıza da bir daha xoş gəlmişsiniz deyirəm! Bu gün çox sevindirici haldır ki, biz burada Yaponiya Hökumətinin maliyyə dəstəyi, qrantı hesabına “Yuxarı Daşkəsən qəsəbəsinin içməli su təchizatının yaxşılaşdırılması” layihəsinin açılış mərasiminə toplaşmışıq.

Həqiqətən, ucqar dağ rayonunun ətəyində çoxsaylı əhali yaşan Yuxarı Daşkəsən qəsəbəsinə dağlardan çəkilmiş ekoloji cəhətdən təmiz içməli su xəttinin istifadəyə verilməsi Azərbaycan-Yaponiya xalqlarının dost olmaqlarına bir daha da bariz nümunədir. Layihə mütəxəssisləri tərəfindən bu yeni su sisteminin qurulmasında yerli icra hakimiyyəti olaraq biz də öz dəstəyimizi əsirgəməmişik, birgə layihənin ərsəyə gəlməsində yaxından köməkliyimizi göstərmişik.

Hörmətli cənab səfir Teruyuki Katori, şəxsən Sizə Yuxarı Daşkəsən qəsəbəsinə su xəttinin çəkilişinə verdiyiniz xeyirxah dəstəyinizə görə rayon ictimaiyyəti və öz adımdan minnətdarlığımızı bildiririk!



Bildiyiniz kimi Azərbaycan regionda iqtisadi cəhətdən bütün sahələrdə inkişaf etmiş hüquqi, demokratik bir dövlətdir. Respublikamızda və bir sıra xarici ölkələrdə möhtərəm cənab Prezidentimiz İlham Əliyevin təşəbbüsü ilə bir-birindən vacib olan çox böyük xeyirxah layihələr həyata keçirilir. Heydər Əliyev fondunun bu sahədə gördüyü işləri də xüsusilə qeyd etmək lazımdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev fondunun prezidenti çox hörmətli Mehriban xanım Əliyevanın ölkəmizdə və bir sıra xarici dost ölkələrdə reallaşdırdığı humanitar aksiyaların sayı-hesabı yoxdur.

Qaçqın ailələrindən olan əlil uşaqlara, diabet, ürək və talassemiya xəstəliyindən əziyyət çəkən balacalara kömək və yardımlar, respublikadakı uşaq evlərinin və internat məktəblərinin əsaslı şəkildə yenidən qurulmasına dair möhtəşəm proqram, ölkə ərazisində ayrı-ayrı yerlərdə yeni bağça və məktəb binalarının, səhiyyə müəssisələrinin tikilməsi ənənə halına çevrilib. Ölkəmizdə və onun hüdudlarından kənarda, xaricdə insanlar Mehriban xanım Əliyevanı məhz xeyirxah, humanist işlərinə görə tanıyır və sevirlər. Çox hörmətli Mehriban xanım Əliyevanın xeyirxah əməlləri dost ölkələrdə böyük hörmətlə qeyd olunur. Bu, bir daha da göstərir ki, Azərbaycan nüfuzlu idman ölkəsi olmaqla humanist, tolerant, sülhsevər və demokratik dövlətdir.

Məlumat üçün bildirim ki, Yaponiya hökumətinin “Ot Kökləri və İnsan Təhlükəsizliyi” Qrant Yardımı Proqramı xarici ölkələrdə iqtisadi cəmiyyətin inkişafını məqsəd götürərək Yaponiyanın xaricdəki səfirliklərinə maliyyə dəstəyini həyata keçirmək üçün yaratdığı nəcib sistemdir. Azərbaycan Respublikasındakı Yaponiya səfirliyində bu kimi layihələr əsasən rayonlarda olmaqla, təhsil, səhiyyə, su sistemi təchizatı və başqa sahələrdə həyata keçirilir.

Bu gün xüsusilə vurğulamaq istəyirəm ki, Azərbaycan Yaponiya münasibətləri yüksək səviyyədədir. Yaponiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasında, doğma torpaqlarımızın işğaldan azad olunmasında, torpaqlarımızın ərazi bütövlüyünün təmin edilməsində Azərbaycanın haqlı mövqeyini dəstəkləyir.

Çıxışımın sonunda bir daha da belə yüksək səviyyəli xeyirxah içməli su layihəsini həyata keçirərək görülən işlər üçün Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri hörmətli cənab Teruyuki Katoriyə, layihəni həyata keçirən “Konstitusiya” Araşdırmaları fonduna və layihə üzrə mütəxəssislərə Daşkəsən rayonunun əhalisi və şəxsən öz adımdan dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk!

Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Teruyuki Katori çıxışında Yaponiya-Azərbaycan xalqlarının dostluq münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayıb. O bildirib ki, bu il Yaponiya ilə Azərbaycan arasında diplomatik əlaqələrin yaranmasının 25-ci ildönümüdür. Yaponiya hökuməti Azərbaycan Respublikasının davamlı inkişafında çox maraqlıdır və bu nöqteyi-nəzərdən özünün inkişafa rəsmi yardım proqramı vasitəsilə ölkənin infrastrukturunun: enerji, su təchizatı, kənd təsərrüfatı və insan resuslarının daha da inkişafı üçün Azərbaycana dəstək verməkdədir. “Yuxarı Daşkəsən qəsəbəsinin içməli su təchizatının yaxşılaşdırılması” layihəsi də hər iki ölkənin dostluğuna bir daha ən nəcib töhfədir.

Açılış mərasimində “Konstitusiya” Araşdırmaları Fondunun prezidenti, eyni zamanda da layihə rəhbəri Əlimməməd Nuriyev qeyd edib ki, sözügedən layihə üzrə qrant müqaviləsi cari ilin 6 mart tarixində Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi ilə imzalanıb. Layihə çərçivəsində 8,1 km su borusu çəkilmiş, 30 ton həcmində ehtiyat su anbarı və 3 bulaqdan ibarət olan yeni su təchizatı sistemi tikilmişdir. Bu da 3000 nəfərdən çox yerli sakinin suya olan ehtiyacını ödəməyə imkan verəcəkdir. Layihənin ümumi məbləği 82,765 ABŞ dolları təşkil edir. Daha sonra Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev ilə Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Teruyuki Katori rəmzi lenti kəsərək bulağın açılışını etmişlər.

Yuxarı Daşkəsən qəsəbəsinə yeni içməli su xəttinin çəkilməsini qəsəbə sakinləri böyük sevinc hissi ilə qarşılayaraq bu işdə zəhməti keçən hər bir kəsə öz təşəkkürlərini bildirmişlər.

Təntənəli açılış mərasiminin sonunda xatirə şəkli çəkilib.

***Elmar VÜQARLI***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***

# Daşkəsən rayonu ərazisində yaylaqlarda olan laçınlı köçkünlərə səyyar həkim briqadası tərəfindən tibbi xidmət göstərilmişdir

Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərlinin tapşırığına uyğun olaraq Laçın Rayon Mərkəzi Xəstəxanasının ixtisaslı həkimlərindən ibarət səyyar həkim briqadası laçınlı məcburi köçkünlərin şəxsi təsərrüfatlarını saxlamaq üçün müvəqqəti köçdükləri Daşkəsən rayonu ərazisində olmuşlar. Səyyar həkim briqadası təcili tibbi yardım maşını, zəruri dərman və sarğı materialları ilə təchiz edilmişdir.



Daşkəsən rayonu ərazisindəki yaylaqlarda təşkil olunmuş səyyar tibbi müayinələr zamanı əhaliyə ambulator tibbi xidmət göstərilmiş, onlara müvafiq müalicə təyin edilərək, digərlərinə sağlamlıqlarında yaranmış müxtəlif problemlərlə əlaqədar aidiyyəti səhiyyə müəssisələrinə müraciət etmələri üçün tövsiyyələr verilmişdir. Həkimlər tərəfindən qocaların və ev şəraitində xəstə vəziyyətdə olan insanların tibbi müayinəsinə xüsusi diqqət yetirmişdir.

Səyyar həkim briqadası tərəfindən göstərilən tibbi xidmətlər rayon sakinləri tərəfindən yüksək razılıqla qarşılanmaqla bu qayğıya görə onlar rayon rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

Həkim briqadası tərəfindən belə tədbirlərin vaxtaşırı davam etdirilməsi nəzərdə tutulmuşdur.

# Nizami yurdunda Gəncə I Beynəlxalq Musiqi Festivalı keçirilib

"Gəncə Müstəqil Dövlətlər Birliyinin Mədəniyyət Paytaxtı 2017" layihəsi çərçivəsində Nizami yurdunda Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Gəncə şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Gəncə I Beynəlxalq Musiqi Festivalı keçirilib.

Əvvəlcə Gəncə şəhər Məhsəti Gəncəvi Muzeyində Gəncə Musiqi Kollecinin və Gəncə Dövlət Universitetinin tələbələrinin musiqi ifa etdikləri "Gənc istedadlar" adlı konsert proqramı təşkil olunub.

Üzeyir Hacıbəyov, Qara Qarayev, Müslüm Maqamayev kimi dahi bəstəkarlarla yanaşı əcnəbi əsərləri məharətlə ifa edən gənclər layihədə iştirak etməyin onlar üçün olan əhəmiyyətindən danışıb.

Sonra Heydər Əliyev Park-Kompleksində yerləşən amfiteatrda keçirilən konsert proqramında N.P.Osipov adına Rusiya Xalq Çalğı Alətləri Milli Akademik Orkestrinin gənc solistlər ansamblı, Tacikistan Respublikasının məşhur "Bazmoro" rəqs ansamblı, Belarus Respublikasının Əməkdar kollektivi, Belarus Dövlət Filarmoniyasının "Kupalinka" folklor qrupu, Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının Kamera Orkestri, eləcə də "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblı, Respublikamızın paytaxtı Bakı şəhərindən gələn tanınmış incəsənət ustaları – Azərbaycan Respublikasının Xalq artisti Azər Zeynalov, Azərbaycan Respublikasının Əməkdar artistləri Abbas Bağırov, Nərgiz Kərimova, Gülüstan Əliyeva, Təyyar Bayramov, Səbuhi İbayev, İlham Nəzərov və başqaları öz ifaları ilə Nizami yurdu sakinlərini sevindiriblər.

Sonda Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev



tərəfindən festival iştirakçılarına sertifikatlar təqdim edilib.

Bildirək ki, 2016-cı il sentyabr ayının 16-da Qırğızıstan Respublikasının paytaxtı Bişkekdə keçirilən Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının 25-ci yubiley sammitində Gəncə şəhəri 2017-ci il üçün "Müstəqil Dövlətlər Birliyinin Mədəniyyət Paytaxtı" elan edilib.

# Samux şəhər Heydər Əliyev adına istirahət parkında Gənclər və İdman Nazirliyinin yaranması gününə və Samux Kikboksinq Klubunun yaranmasının 17-ci ilinə həsr olunmuş kikboksinq idman növü üzrə açıq rayon birinciliyi keçirildi



Samux Rayon İcra Hakimiyyətinin və Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə 23-25 iyul tarixlərdə ənənəvi olaraq Samux şəhər Heydər Əliyev adına istirahət parkında Gənclər və İdman Nazirliyinin yaranması gününə və Samux Kikboksinq Klubunun yaranmasının 17-ci ilinə həsr olunmuş kikboksinq idman növü üzrə açıq rayon birinciliyi keçirildi. Yarışda Bakı şəhər 2 komanda, Gəncə şəhər 6 komanda, Mingəçevir şəhər 2 komanda, Bərdə rayon 2 komanda, Goranboy rayon 2 komanda, Şəmkir rayon 2 komanda, Tovuz rayon 2 komanda, Kəlbəcər rayon 1 komanda, Göy-göl rayon 1 komanda, Akstafa rayon 1 komanda, Saatlı rayon 1 komanda, Ağdam rayon 1 komanda, Samux rayon 4 komanda olmqla, ümumilikdə 27 komandadan 400-ə qədər idmançı öz gücünü ortaya qoydu. Yarışda Samux Rayon İcra Hakimiyyəti başçısı Cənab Alı Qocayev, fəxri qonaqlar, idarə və təkilatların nümayəndələri və gənclər iştirak etdi. Yarışın keçirilməsində əsas məqsəd idmanın kütləviliyinin artırılması, yeniyetmə və gənclərin zərərli vərdişlərdən çəkindirmək, gənclərin yay tətili günlərini səmərəli keçirməsi və həmçinin kikboksinq idman növünün yeniyetmə və gənclər arasında təbliğidir. Tamaşaçıların böyük marağına nail olan bu yarış 25 iyul 2017-ci il tarixdə uğurla başa çatdı.

# ABŞ-lı General Garner: Sykes-Picot müqaviləsi öz hüquqi əsasını itirmişdir

ABŞlı General Jay Garner, Kürdüstanın parçalayan Sykes-Picot razılaşmasının əhəmiyyətini itirdiyini, İraqın ərazi bütövlüyünün qorunması strategiyasının çökdüyünü və ABŞ-ın bu strategiyadan imtina etməsi lazım olduğunu söylədi.




Kurdistan24 və Washington Times qəzetinin ABŞ Konqresində birlikdə təşkil etdikləri "Kürdüstan, ABŞ-ın strateji müttəfiqi" adlı konfransda danışan ABŞ-ın General Jay Garner, "Kürdüstanın parçalayan Sykes-Picot razılaşması öz əhəmiyyətini itirdi. İraqın ərazi bütövlüyünün qorunması strategiyası də çökdü. ABŞ bu strategiyadan imtina etməli "dedi.

Fərqli dövrlərdə ABŞ ordusu tərkibində Kürdüstanda vəzifə tutmuş olan General Garner, kürdlərin 1991-ci ildən bəri öz özlərini idarə təcrübəsi yaşadığına diqqət çəkərək, "kürdlərin müstəqilliyinin dəstəklənməsi lazımdır." Dedi.

ABŞ-lı General Jay Garner, "işid-i savaşı bütün dünyaya kürdlərin nə qədər mübarizəçi bir xalq olduğunu göstərdi" dedi. ***Nerina Azad***

# Tel-Əviv Kürdistanın müstəqillik məsələsini dəstəkləyir



Bu barədə İsrailin "Yerusalim post" qəzeti yazı dərc edib. Türkiyədə nəticəsiz qalan çevriliş qəsdindn sonra dövlət, İraqda siyasi sabitsizliyin milli kürd hərəkatının inkişaf etməsinə səbəb olacağı barədə nigaran olmağa başladıqlarını bildirib.

Türkiyənin bu barədə nigarançlığı PKK-nın İraqın şimalında Türkiyəyə qarşı silahlı mübarizəsindən sonra daha da artdı. Onlar, İraq dövləti ilə hər 2 tərəfdə olan kürd nasionlanist hərəkatları əleyhinə siyasi həmkarlığa başladı. Mişel Hertzuq bu barədə bildirib: "Ərdoğanın şəxsi mənfəət tələbliyi İraq kürdləri, xüsusən Məsud Barizaninin Türkiyənin iqtisadi şəriki olmasına səbəb oldu. Türkiyə İraqın Kürdistan əyaləti ilə bir olaraq, Suriya daxili savaşında Suriya kürdlərinin ortaya çıxmaslna mane olmaq istədi.

İraqda İŞİD-in məhv olması ilə Barizani mərkəzi dövlətlə İraq qüvvələrini uzun müddət özlərinə məşqul edəcək yeni müharibəyə başlaya bilər. Barizanini geriyə yolu olmayan bir layihəyə salmışıq. O ya Kürdistanı müstəqil ölkə olaraq təşkil edəcək ya da İraq və İranla daxili müharibəyə başlayacaq. Hər 2 hal Tel-Əviv və ABŞ-ın mənafelərinin xeyrinədir." ***sizinyol.com***

# Kürdüstana bir addım qaldı



İraqın şimalındakı Kürdüstan Muxtariyyətinin hakimiyyət dairələri bölgənin dövlət müstəqilliyi ilə bağlı referendumun keçiriləcəyi vaxtı açıqlayıblar. İraq Kürdüstanının prezidenti Məsud Bərzaninin köməkçisi Hemin Xəvranın dediyinə görə, plebissit sentyabrın 25-də olacaq. Region sakinləri İraqın tərkibində geniş səlahiyyətlərə malik muxtariyyət kimi qalmağa və ya tam müstəqil olmağa səs verməlidirlər.

Kürd məmurların dediklərinə görə, referendum keçiriləcəyi ərazilərə onlar Kərkükü və bu şəhərin ətrafını da daxil ediblər. Hazırda həmin bölgəyə kürdlərin silahlı birləşmələri olan "peşmərgə"lər nəzarət etsələr də, Kərkük şəhərini rəsmi Bağdad kürd ərazisi hesab etmir. ***cmedia.ge***

# Məsrur Bərzani: Kürdistanla İraqın yaxşı əlaqələrə sahib iki qonşu ölkə olmasını istəyirik

Kürdüstan Təhlükəsizlik Şurasının sədri Məsrur Bərzani ABŞ Konqresində təşkil edilən "Kürdüstan, ABŞ-ın strateji müttəfiqi" adlı konfransda çıxış etdi.

ABŞ Konqresində Kurdistan24 ilə Washington Times qəzeti tərəfindən ortaq şəkildə təşkil edilən "Kürdüstan, ABŞ-ın strateji müttəfiqi" adlı konfransda danışan Kürdüstan Təhlükəsizlik Şurasının sədri məsrur Bərzani, "DAİŞ'le döyüş bunu göstərdi, Kürdüstan İraqın bir hissəsi deyil" dedi.

Kürdüstanın gələcəyini maraqlandıran referendum və müstəqillik məsələlərini ABŞ Konqresində müzakirənin xoşbəxtlik verici olduğunu dilə gətirən Bərzani, "Quruluşundan 1991-ci ilə qədər İraq rejimi, kürdlərə və orda yaşayan xalqlara qarşı Ənfal və kimyəvi hücumlarla qırğınlar reallaşdırdı. 1991-ci ildən sonra Kürdüstan xalqının azadlıq mübarizəsindən sonra Kürdüstan bir dərəcəyə qədər azadlığını əldə etdi "ifadələrini istifadə etdi.

Səddamın müstəqil bir ölkə olan Küveyti işğal etməsindən sonra ABŞ və qərb ölkələrinin Səddamı devirmək üçün hərəkətə keçmə prosesinin başladığını ifadə edən Bərzani, DAİŞ-lə döyüş bunu göstərdi, Kürdüstan İraqın bir hissəsi deyil. Bunu biz göstərmədik, Bağdadın özü göstərdi. Biz bütün dünya xalqlarına verilmiş müstəqillik haqqını özümüz üçün də istəyirik. BM-dən də bunu bu şəkildə görməsini istəyirik "deyə danışdı.

Bərzaninin danışmasının sətir başları belə;

Artıq kənarda, hər an qırğına məruz qalmağa hazır bir xalq olmaq istəmirik. Gələcəyimizi təyin etmək və təhlükəsizliyimizi təmin etmək istəyirik.

Dais-in, Kürdüstana hücumu zamana uyğun deyil deyildi. İndi Daisi bitişə doğru gedir yenə zaman uyğun deyil. Soruşuram zaman nə vaxt uyğun olacaq?

Bizim üçün zaman müstəqillik zamanıdır.

DAİŞ-in necə ortaya çıxdığına yaxşı baxmaq lazımdır. Bağdad rəhbərliyi ictimai, siyasi və hərbi baxımlardan vəzifələrini yerinə yetirmiş olsaydı, Dais ortaya çıxmayacaktı.

DAİŞ-i ortaya çıxaran səbəb İraqın ərazi bütövlüyünün olduğu bir zamanda reallaşdı. Madam elə Kürdistanlı bir üsul sınayaq və görək.

Dais-i hücuma keçdiyində İraq ordusu olduğu yerləri tərk edib DAİŞ-ə buraxdı. Peşmərgə, DAİŞ'-n irəliləməsinə mane oldu.

100 illik keçmiş təcrübə, ərazi bütövlüyü qorunan İraqın həll olmadığını bizə göstərir. Biz problemləri həll olmayan mövcud vəziyyəti sülh üsullarla dəyişdirmək istəyirik.

Kürdlər olaraq İraqdakı bütün



hökumətləri və rejimləri təcrübə etdik. Mövcud İraq rəhbərliyinin digərlərindən çox fərqi yoxdur. Bağdad, Kürdüstan xalqına qarşı çox pis tətbiqlər reallaşdırdı.

İraqda bəzi ətraflar Kürdüstanın İraqın bir hissəsi olaraq görmür.

Bağdad 140. Maddəni tətbiq etmədi, çünki uyğulansaydı, statusu təyin olunmamış bölgələrin Kürdüstana bağlanacağını bilirdi. İraq problemi hərbi üsullarla həll etməyə çalışdı.

İraqla birlikteliyimiz, problemlərin daha da böyüməsi nəticəsini doğurur və artıq buna son vermək istəyirik. Özümüzü idarə edə biləcək potensiyalimiz var.

1991-ci ildən bu yana heç bir ABŞ əsgəri Kürdüstanda həyatını itirməyib.

**KÜRDİSTAN - TÜRKİYƏ ƏLAQƏLƏRİ**

Türkiyə ilə əlaqələrimiz yaxşıdır. Gələcəkdə İraq ilə də yaxşı əlaqələr içərisində olmaq istəyirik. Bütün qonşu ölkələrlə bu şəkildə əlaqə yaratmaq istəyirik.

**Qərb Kürdüstan VƏ PYD**

Suriyadakı kürdlərin hüquqlarını əldə etməsinə qarşı deyilik, PYD ilə bu mövzuda bir problemimiz yoxdur, yalnız Rojavadakı digər seqmentlərin də rəhbərlikdə söz sahibi olmasını və kürdlərin Suriyadakı digər tərəflərlə yaxşı əlaqələr qurmasını istəyirik.

İraqdakı problem yalnız kürdlər ilə Bağdad rəhbərliyi arasındakı problem deyil. İdarə ilə Sünnilər arasında da böyük problemlər var.

Kürdlər, gelecekleriyle əlaqədar böyük narahatlıqlar daşımasaydı, İraqdan ayrılmağı gündəmlərinə almayacaklardı amma bu həqiqət qarşımızda dayanır və İraq ilə etibarlı və dinc bir gələcək mümkün deyil. Buna görədə ən yaxşı həll yolu olaraq Kürdüstanın İraqdan ayrılması və yaxşı əlaqələr içərisində iki qonşu ölkə olmasını istəyirik.

Bu həm İraq, həm də Kürdüstanın faydasına olacaq, Kürdüstan ilə İraq neft, su və bir çox iqtisadi sahədə əməkdaşlıq içərisində iki müttəfiq ölkə ola bilər.

DAİŞ-i ortaya çıxaran səbəblər ortadan qaldırılmadığı müddətcə terror təhlükəsi həmişə var olacaq.

Kürdüstan, 1 milyon 800 min döyüşdə zərər çəkənləri, şəhid ailələrini saxlayır. Kürdistandakı etnik və dini Aidiyyət və Ninova bölgəsindəki xristianları qoruduğumuz kimi döyüş məğdurlarını da qoruyur və bütün imkanlarımızla bu zərər çəkmiş uşaqların humanitar ehtiyaclarını qarşılayırıq.

**"Məqsədimiz barış və sülh içində BİR ÖLKƏ yaratmaqdır"**

Məqsədimiz bölgənin asayiş və təhlükəsizliyini təhlükəyə atmaq deyil, Kürdüstanın bütün xalqlarını, etnik və dini azlıqların sülh və güvən içərisində yaşaya biləcəkləri bir vətən etmək və bunun üçün bütün dünyanın, xüsusiyyət də ABŞ-ın Kürdüstanın müstəqilliyinə dəstək verməsini istəyirik. ***Kurdistan24***

# Amerika Kongesində Türkmən nümayəndəsi Najar: "Türkmənləri qoruyan həmişə kürdlər olmuşdur"

ABŞ Konqresində Kurdistan24 ilə Washington Times qəzeti tərəfindən ortaq şəkildə təşkil edilən "Kürdüstan, ABŞ-ın strateji müttəfiqi" adlı konfransda danışan Kürdüstandakı Türkmən nümayəndələrindən Türkmen Mədəniyyət Dərnəyi Başçısı Cövdət Najar, Türkmənlər olaraq Kürdüstanı öz vətənləri kimi gördüklərini və Kürdüstanın müstəqilliyini dəstəklədiklərini söylədi .

Bağdad rəhbərliyinin tətbiqlərinin, Türkmənlərin İraqı öz vətənləri olaraq görmələrinə mane olduğunu dilə gətirən Najar, 1958-ci ildə Türkmənlərin İraqda qırğından keçirildiyini və Türkmənləri bu qırğınlardan qurtaracaq dəstəyi yalnız Kürdlərdən, peşmərgələrdən gördüklərini ifadə etdi.

1961-ci ildən etibarən Türkmənlərin kürdlərin başlatdıqları azadlıq mübarizəsinə dəstək verdiyini xatırladan Cövdət Najar, "Çünki Türkmənləri qoruyanlar həmişə kürdlər oldu." Dedi.

Türkmenlərin nümayəndəsi belə danışdı:

"Sevgili Mustafa Bərzani, Türkmənləri Kürdüstanın əsl sakini olaraq gördü. İraqda türkmənlər azlıq olaraq qəbul edilərkən, Kürdüstan Başçısı Məsud Bərzaninin səyi ilə Türkmənlər Kürdüstan rəhbərliyinin səyi ilə Kürdüstanın ikinci, İraqı isə üçüncü əsl milləti olaraq qəbul edildi. "

Kürdüstan Prezidenti Məsud Bərzaninin Kürdüstanın müstəqillik referendumunu sonuna qədər dəstəklədikləri



mesajını çatdırdıqarını vurğulayan Cövdət Nəjar referendumun müvəffəqiyyətlə nəticələnməsi üçün hər cür dəstək verəcəklərini söylədi.

Nəjar, "Kürdüstanın əsl bir vətəndaşı olaraq ABŞ-dan xahişimiz və tələbimiz, Kürdüstanın müstəqilliyinə dəstək verməsi və tanımasıdır." Dedi. ***Kurdistan24***

# MÜSTƏQİL KÜRDÜSTAN YAXIN ŞƏRQDƏ SÜLHÜN QARANTI OLACAQ

## *Kürdlər üçün tarixin ən böyük sınağı və yaxın Şərq tarixinin ilk müstəqillik Referendumu*

Yaxın Şərqdə gedən siyasi və hərbi proseslərin mərkəzində yer alan kürd hərbi və siyasi gücləri mövcud situasiyada nə etməli olduqlarına çoxdan qərar vermişlər. Çoxəsirlik siyasi və yeri gəldikcə, müstəqillik uğrunda hərbi manevirlər edən kürdlər İŞİD terroru ilə mübarizədə Kürdüstanın Suriya və İraq parçalarında dünyanın super gücləri ilə müttəfiq olaraq hərəkət etməkdədirlər. Eyni zamanda, İŞİD terror təşkilatı ilə mütəmadi savaşan və İŞİD-in də savaşdığı mərkəzi gücdürlər. Bu anti terror əməliyyatlarından sonra mərkəzi güc olan kürdlərin Suriya parçasında demokratik bir muxtariyyət tələblərinin qəbul olunacağı şübhə doğurmur. Çünki bundan öncə Səddam rejiminə qarşı savaşan və sonda defakto müstəqillik rəsmi muxtariyyət qazanan Kürdüstanın İraq parçası gerçəyi var və bu gün kifayətqədər hərbi gücə malik olan mərkəzi Kürdüstan hökuməti müstəqilliyini elan etmək üçün 25 sentyabr 2017-ci il tarixini rəsmən elan edib və heç şübhəsiz bu referendum 90 % bir nəticə ilə sonuclanacaq və Kürdüstan bu referendumla öz müstəqilliyini elan etmək haqqına sahib olacaq. Bu referendum paketindən mütəqil Kürdüstan Dövlətinin çıxmasının hər şeydən öncə, tarixi kökləri və kürd xalqının fərqli İraq siyasi hakimyyətləri ilə yaşanan gərginlikləri, xususi ilə Ənfal və Hələbçə kimi şəhərlərin İraq dövləti tərəfindən kimyəvi silahlarla bütünlüklə məhv edilməsi və 200 mindən artıq insanın ölmü ilə nəticələnməsi, on minlərlə kürdün İraq həbsxanlarında tutulması, qətl edilməsi, dədə-baba torpaqlarından sürgün edilməsi və s. tarixi gerçəkliklər dayanır. Artıq heç bir gücün kürdlərlə ərəbləri bir dam altında birləşdirə bilməyəcəyini görmək mükündür və dünyanın super güclərində Kürdüstanın müstəqilliyini dəstəkləyəcəyini yüksək dövlət məmurlarının dilindən dəfələrlə sələndirib və səlәndirməkdə davam edir.

Beləliklə, yaxın Şərqdə bir kürd dövləti qurulur və bu hər şeydən öncə, MÜSTƏQİL KÜRDÜSTAN, KÜRDÜSTAN VƏ KÜRDÜSTAN deyən kürd xalqının iradəsinin göstəricisidir və bu haqqın dəstəklənməsi lazımdır.

**Kürdüstan qonşu dövlətlərə bir təhdit yoxsa...?**

Fikirimizcə, **Müstəqil Kürdüstan yaxın Şərqdə hərbi qarşıdurmaların deyil, davamlı sülhün qarantı olacaq.** Bu nəticəyə gəlməyimizin əsas səbəbi bölgədə İraq,İran və Türkiyə üçbucağınınbir-birinə qarşı bəzi kürd qruplarından istifadə etmək cəhdləri aradan qalxacaq. (Suriya və Kürdüstanın Suriya parçası məsələsinin talehi isə İŞİD terrorunun sonunda bəlli olacaq) və bu dövlətlər bu gün nə qədər Kürdüstanda keçiriləcək referendumu dəstəkləməsələrdə sabah iqsadi bir tərəfdaşla və demokratik bir dövlətlə qonşu olacaqlar. İlk başda nə qədər radikal görünsədə İraq da daxil olmaqla bu dövlətlərin Müstəqil Kürdüstana ehtiyacları var. Ən azından, daxili sabitlikləri baxımından. Çünki Kürdüstan bölgəsində keçiriləcək referendum nəinki İraq Kürdüstan Fedaral bölgəsində yaşayan xalqların, bütünlükdə dünya kürd diasporası və lobbisinin iradəsini əks etdirir və ümumxalq iradəsini sındırmaq eləda asan bir məsələ deyildir. Bu üçlüyün Müstəqil Kürdüstana qarşı gəlməsi daxildə onsuzda olan kürd gərginliyini dahada alovlandıracaq. Eyni zamanda, kürdlərə hərbi və siyasi dəstək veren ABŞ, Almanya, Fransa və bu qəbildən olan



dünya dövlətləri ilə qarşı- qarşıya gətirəcək. İqtisadi və sitrateji maraqları olan qərb dövlətləri ən azından Kürdüstanın zəngin nefit və qaz yataqlarının istismarı məsələsində böyük maraqları var və bu maraqlarını gerçəkləşdirmələri üçündə sabitliyi olan bir yaxın Şərq ölkəsinə ehtiyacları var ki, Buda heç şübhəsiz, qurulmaqda olan Kürdüstan dövlətidir.

**Kürdüstanda liderlik və Müstəqil Kürdüstan məsələsi**

Kəskin siyasi və hərbi münaqişələrin içində böyüyən və qətiyyətli bir lider kimi formalaşan Məsud Bərzani yaxın Şərq məsələsində ən populyar lider və eynizamanda vacib bir siyasi şəxsiyyətdir. Bu gün müstəqillik yolunda qoyulan son kərpiclərədə adını yaza biləcək bir siyasətçidir. Bu günə qədər təkcə eyni soyadı daşıdığı Barzan tayfasından 13 min şəhid verən Məhsud Bərzani İŞİD-lə mübarizədə də ön cəbhədə xalqla bir yerdədir. Dünyanın ilk sıralarda qərar tutan universi tetlərində təhsil alan ən yaxın ailə üzvlərinin belə cəbhəyə gələrək ön sıralarda savaşması kimi gerçəklər onun bir lider kimi qəbul olunmasına və hərtərəfli xalqdəstəyi qazanmasına şərait yaradır. Xalqın güvəndiyi və kütləni ardınca apara bilən bir gücə sahib olan Məhsud Bərzani Müstəqil Kürdüstanın statusu məsələsində dəfələrlə qətiyyətli mövqeyini bildirib. 1920-ci illərdə tarixi kürd toprpaqlarının bir sıra qərb dövlətlərinində dəsdəyi ilə parçalanmasına diqqət çəkən Məhsud Bərzani: "Bizim torpaqları bölüşdürürkən bizdən icazə almadılar və biz birləşirkən də kimsədən icazə almayacağıq", deyərək qəti bir şəkildə Müstəqillik məsələsindən xalqın dəstəyi ilə iki əlli yapışıb və bu məsələdədə haqlı olduğuna heç şübhə yoxdur. Bu gerçəklər Məhsud Bərzaninin liderliyində Müstəqil Kürdüstan Dövlətinin referendumdan sonra elan ediləcəyi şübhə doğurmur.

**Müstəqil Kürdüstan Azərbaycan üçün önəmlimi?**

Bu ilyanvarın 18-də Cənab Prezident İlham Əliyev Davosda İraq Kürdüstan Regional Hökumətinin başçısı Cənab Məsud Bərzani ilə görüşməsi və bu görüşdə Cənab İlham Əliyevin xalqlarımız arasında tarixi, mədəni əlaqələrin olduğunu qeyd etməsi, Cənab Məsud Bərzaninin atasının vaxtilə bir müddət Azərbaycanda yaşadığını xatırlaması və Cənab Məsud Bərzani atasının xatirəsini yad etdiyi üçün dövlətimizin başçısına minnətdarlığını bildirərək atasının Bakı ilə bağlı xatirələrini hər zaman məmnunluqla yad etdiyini vurğulaması özündə iki dost xalqın gerçəklərini bir daha və ən yüksək dövlət başçıları səviyyəsində dilə gətirildi. Bu Görüşdə Azərbaycan ilə Kürdüstan Regional Hökuməti arasında energetika, ticarət, idxal-ixrac və digər istiqamətlərdə əməkdaşlıq imkanlarının araşdırılmasının mümkünlüyü qeyd edilmişdir.Cənab Məsud Bərzani İraq Kürdüstan Regional Hökumətinin Azərbaycan şirkətləri ilə müxtəlif layihələr üzrə əməkdaşlıqda maraqlı olduqlarını bildirmiş, əlaqələrimizin genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu vurğulamışdır.

Bu görüş heç şübhəsiz,Azərbaycan Kürdüstan əlaqələrinin yeni bir müstəviyə daşına bilməsi imkanlarını ortaya qoyur və Kürdüstanın rəsmi mütəqilliyini elan etməsindən sonra bu əlaqələrin dahada inkişaf etdirilməsi həm Azərbaycan, həm Kürdüstan üçün çox önəmli ola bilər. Kürdüstanın nefitqaz yataqlarının işlənməsində Azərbaycanın iştirakı hər tərəfli mükündür və bu heç şübhəsiz, Azərbaycanın iqtisadi maraqlarına eynizamanda Kürdüstan iqdisadiyyatına və maraqlarına xidmət edəcək. Bununla yanaşı, bir sıra sahələr üzrə iqtisadi əlaqələrin inkişafı Azərbaycan üçün yeni imkanlar aça biləcək. Siyasi baxımdan da Müstəqil Kürdüstan Azərbaycan üçün siyasi bir tərəfdaş ola bilər. Belə ki, Azərbaycan Ermənistanın yaxın Şərq siyasətində Kürdüstana önəm verməsi və hərtərəfli əlaqələr qurmasına cəhdlərinin qarşısına keçə bilər. Heç şübhəsiz həm tarixi-mədəni əlaqələr baxımından, eyni zamanda iqtisadi və siyasi maraqlar baxımından Kürdüstan-Azərbaycan əlaqələrini Kürdüstan hökuməti daha önəmli sayar, nəyinki Kürdüstan Ermənistan əlaqələrini.

Bunlarla yanaşı, Kürdüstandakıtürkmənlər məsələsində unutmaq lazım deyil. Azərbaycanlılarla qan və dil qardaşı olan türkmənlərin əsas siyasi partiya və təşkilatlarının Müstəqil Kürdüstanı dəstəkləməsi gerçəyidə ortadadı. Türkmənlərin də Kürdüstanı dəstəkləməsində tutarlı arqumentləri var. Bu hazırkı Kürdüstan hökumətinin ərəblərdən fərqli olaraq türkmənlərə mədəni muxtariyyət verməsi, İŞİD terrorundan türkmənləri qorumaq üçün yüzlərlə Kürdüstan peşmərgəsinin şəhid olması amilidə var. Bu səbəblərlə türkmənlər haqlı olaraq Müsdəqil Kürdüstanı dəstəkləməkdədirlər.

Beləliklə, bu nəticəyə gəlmək mükündür ki,Müstəqil Kürdüstanın qurulması Azərbaycan üçün də maraqlı və önəmlidir.



**Nofəl Şirinov**

# İŞİD-ə qarşı döyüşlərdə yaralanan kürd döyüşçülər Rusiyada müalicə alır

İraq Kürdüstanının Rusiyadakı nümayəndəsi çox az adamın bildiyi dəstək barədə danışıb. İslamazeri.com-un "Islam



Today"-ə istinadən verdiyi xəbərə əsasən, İŞİD terrorçularına qarşı döyüşlərdə yaralanan çox sayda kürd döyüşçüsü Rusiya ərazisində müalicə alır.

İraq Kürdüstanının Rusiyadakı nümayəndəsi Aso Tələbani rəsmi Moskvanın kürdlərə göstərdiyi yardım barədə danışıb.

